

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 138 (23.780)

*3 avqust 2021-ci il, çərşənbə axşamı*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Dövlət proqramı icra olunur*

## Əhalinin məşğulluğunun artırılması istiqamətində tədbirlər davam etdirilir

*Ölkəmizdə həyata keçirilən hərtərəfli sosial müdafiə tədbirləri, xüsusilə əhalinin məşğulluğunun təmin olunması istiqamətində aparılan islahatlar, reallaşdırılan layihələr, yeni iş yerlərinin açılması Prezident cənab İlham Əliyevin* ***“Azərbaycanda həyata keçirilən siyasətin mərkəzində vətəndaş dayanır”*** *dəyərli fikrinin bariz təzahürü və əməli nəticəsidir.*

Naxçıvan Muxtar Respublikasında da həyata keçirilən dövlət siyasətinin prioritet istiqamətlərindən birini əhalinin səmərəli məşğulluğunun təmin olunması təşkil edir. Bu məqsədlə görülən işlər yeni fəaliyyət sahələrinin yaranmasına və müvafiq ixtisaslara malik işaxtaranların bu sahələrdə işlə təmin olunmasına gətirib çıxarır. Məşğulluğun təminatına yönələn tədbirlərin davamlılığının qorunmasında icrası yüksək peşəkarlıqla həyata keçirilən Dövlət proqramlarının əvəzolunmaz rolu vardır. Bu proqramlarda nəzərdə tutulan tədbirlərin vaxtında icra olunması yeni iş yerlərinin sayının artması və işaxtaranların sosial müdafiəsinin gücləndirilməsi üçün geniş imkanlar açır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 28 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın da məqsədi əhalinin məşğulluğuna yönəldilən tədbirlərin davamlılığına nail olunması, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin edilməsidir. Proqramda müəyyənləşdirilən tapşırıqların icrası ikinci rübdə də davam etdirilmiş, boş iş yerlərinin toplanmasının təmin edilməsi məqsədilə vergi orqanlarında qeydiyyatdan keçən 681 fiziki və hüquqi şəxs haqqında məlumatlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmuşdur.

Əmək ehtiyatlarından səmərəli istifadəyə yönələn tədbirlər içərisində yarmarkaların təşkili xüsusi yer tutur. Keçirilən əmək yarmarkaları işaxtaranlar üçün ixtisasına və qabiliyyətinə uyğun işin seçilməsi, işəgötürənlər üçün isə müxtəlif fəaliyyət sahələrinin potensiallı kadrlarla təmin olunması imkanı deməkdir. İkinci rübdə Naxçıvanda keçirilən əmək yarmarkalarında 253 müəssisə tərəfindən boş iş yerləri təqdim edilmiş, 214 nəfərin müvafiq işlə təmin olunması üçün göndəriş verilmişdir. Ümumilikdə, aprel-iyun aylarında 730 nəfər iqtisadiyyatın müxtəlif sahələrində işlə təmin olunmuşdur. Onlar içərisində 172 gənc, 106 qadın və 17 sağlamlıq imkanları məhdud şəxsin olması muxtar respublikada sosial müdafiəyə daha çox ehtiyacı olan ayrı-ayrı əhali qruplarının zəruri tələbatlarının ödənilməsinə xüsusi həssaslıqla yanaşıldığını deməyə əsas verir.

Naxçıvanda məşğulluğun təminatı sahəsində müsbət dinamikanın qorunmasına təsir edən faktorlardan biri sahibkarlıq fəaliyyətinə göstərilən xüsusi dövlət dəstəyidir. Mövcud kənd təsərrüfatı və sənaye potensialından səmərəli istifadəyə yönəlmiş maliyyə dəstəkli layihələrin hazırlanması, sahibkarlar üçün güzəştli şəraitin formalaşdırılması müxtəlif istehsal sahələrinin və bu sahələrdə yeni iş yerlərinin yaranması ilə nəticələnir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Sahibkarlığın inkişafında başlıca hədəf sosial-iqtisadi səmərəlilikdir. Son illər muxtar respublikada sahibkarlıq fəaliyyəti üçün yaradılan şərait iqtisadiyyatın dinamik inkişafını təmin etməklə yanaşı, iş yerləri də açılmış, əhalinin məşğulluğu və rifahı yüksəlmişdir...”***

Proqramın icrasına uyğun olaraq ikinci rübdə Sahibkarlığın İnkişafı Fondu tərəfindən 42 layihənin maliyyələşdirilməsinə 1 milyon 153 min 650 manat həcmində güzəştli şərtlərlə dövlət maliyyə dəstəyi göstərilmişdir. Ümumilikdə, dövlət maliyyə dəstəyi və özəl investisiya qoyuluşu hesabına 37 istehsal sahəsinin yaradılması başa çatdırılmış, bu sahələrdə 249 iş yeri açılmışdır. Eyni zamanda 46 sahənin yaradılması və 476 yeni iş yerinin açılması istiqamətində işlər də davam etdirilmişdir.

Qeyd olunanlarla yanaşı, ötən dövrlərdə olduğu kimi, aprel-iyun aylarında da ailə əməyinə əsaslanan alternativ gəlir mənbələrinin genişləndirilməsi diqqətdə saxlanılmışdır. Belə ki, bu dövrdə 25 ailə təsərrüfatına 424 min 900 manat həcmində dövlət maliyyə dəstəyi göstərilmişdir.

İnsanların işlə təmin olunması üçün göstərilən dövlət qayğısının ən mühüm təzahürlərindən biri də özünüməşğulluq proqramıdır. Proqram çərçivəsində aktivlərin verildiyi ailələr özləri üçün yeni fəaliyyət imkanları yaradır. Sosial qayğıya ehtiyacı olan şəxslərin özünüməşğulluq proqramına cəlb edilməsi isə onların aktiv cəmiyyət həyatına inteqrasiyasını daha da sürətləndirir. Dövlət proqramının icrası məqsədilə ikinci rübdə 85 sosial qayğıya ehtiyacı olan ailənin





özünüməşğulluğu təmin edilmişdir. Əvvəlki dövrlərdə aktiv verilmiş ailələrə məxsus fəaliyyət sahələrində monitorinqlər davam etdirilmiş, təsərrüfatını nümunəvi şəkildə inkişaf etdirən 3 ailəyə əlavə aqreqatlar verilmişdir. Bunlarla yanaşı, sağlamlıq imkanları məhdud və evdar qadınlarla bağlanmış müqavilə əsasında 700 yun jilet toxunaraq hərbi hissələrə təqdim edilmişdir. İkinci rübdə 38 sağlamlıq imkanı məhdud qadına toxuculuq peşəsinin öyrədilməsi məqsədilə təlimlər təşkil olunmuşdur. 22-23 may tarixlərində “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində keçirilən göyçə məhsullarının satış yarmarkasında sağlamlıq imkanları məhdud şəxslərə, eləcə də Naxçıvan Regional Peşə Tədris Mərkəzinin müəllim və müdavimlərinə məxsus 55 əl işinin satışı təmin edilmişdir. Həmçinin aprel-iyun aylarında Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkil etdiyi sərgi-satışlarda 212, Naxçıvan Biznes Mərkəzində 36 əl işinin satışının təmin olunması bu sahədə təşkilati fəaliyyətin mütəmadi xarakter daşımasının əyani sübutudur.

Mövcud əmək ehtiyatlarından məqsədəuyğun istifadə olunması səmərəli məşğulluğun başlıca şərtlərindəndir. Bu məqsədə yönələn əsas istiqamət isə peşə hazırlığının əmək bazarının tələbinə uyğunlaşdırılmasıdır. Dövlət proqramının icrası məqsədilə peşə kurslarının təşkili ikinci rübdə də davam etdirilmişdir. Bu dövrdə Naxçıvan Regional Peşə Tədris Mərkəzində və cəzaçəkmə müəssisələrində təşkil edilən kurslara 15-i gənc olmaqla, ümumilikdə, 60 nəfər cəlb olunmuşdur. Eyni zamanda Təhsil Nazirliyinin tabeliyindəki peşə təhsili müəssisələrində keçirilən kurslara 105-i gənc olmaqla, 199 nəfər bitirmişdir. Aprel-iyun aylarında ümumtəhsil məktəblərinin yuxarı siniflərində təhsil alan 378 şagirdə əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatların verilməsi təmin olunmuşdur. Ordubad Texniki Peşə və Sürücülük Məktəbində keçirilən xalçaçı kursuna 15 nəfərin cəlb edilməsi bir daha təsdiqləyir ki, peşə hazırlığı təşkil olunarkən xüsusi diqqətdə saxlanılan məsələlərdən biri də ənənəvi xalq yaradıcılığı sahələrinin inkişafının dəstəklənməsidir.

Dövlət proqramında nəzərdə tutulan mütərəqqi tədbirlər içərisində qeyri-formal məşğulluğun qarşısının alınması özünəməxsus yer tutur. Çünki rəsmi prosedurlardan kənar təşkil edilən fəaliyyət sosial-iqtisadi inkişafa mənfi təsir göstərə biləcək faktorlardan hesab olunur. Qeyri-leqal məşğulluğun aradan qaldırılması ictimai gəlirin artmasına səbəb olur və sosial rifahı təmin edir. İkinci rübdə əmək müqaviləsi bildirişlərinin elektron informasiya sistemində qeydiyyata alınmasına dövlət nəzarətini həyata keçirmək məqsədilə muxtar respublika ərazisində fəaliyyət göstərən sahibkarlıq obyektlərində monitorinqlər davam etdirilmişdir. Bu monitorinqlər zamanı 49 obyektdə 101 işçinin əmək müqaviləsi qüvvəyə minmədən işə cəlb edildiyi müəyyənləşdirilmiş, işçilərin müvafiq əmək müqaviləsi bildirişlərinin elektron informasiya sisteminə daxil edilməsinə dair işəgötürənlərə yazılı xəbərdarlıq edilmişdir. Eyni zamanda qanunsuz əmək fəaliyyəti ilə məşğul olan 1 əcnəbi barədə qanunvericiliyə uyğun tədbir görülmüş, muxtar respublika ərazisində haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olmaq üçün müraciət edən 51 əcnəbiyə iş icazəsi ilə bağlı rəy verilmişdir.

Proqramda müəyyənləşdirilmiş tapşırıqlardan biri də sağlam və təhlükəsiz əmək şəraitinin təmin olunmasıdır. Fəaliyyət şəraitinin tələb olunan şərtlərə uyğun təşkili işəgötürənlərin ən mühüm vəzifələrindəndir. Əməyin səmərəliliyinə müsbət təsir göstərən amillərdən biri, şübhəsiz ki, sağlam iş mühitinin mövcudluğudur. Mühafizə olunan əmək istehsal bolluğu və son nəticədə, ictimai rifah deməkdir. İkinci rübdə muxtar respublika üzrə 46 obyektdə nəzarət həyata keçirilmiş, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə etməyən 37 işçi həmin vasitələrlə yerində təmin edilmiş, 5 işçi müvəqqəti olaraq tikinti sahəsindən uzaqlaşdırılmışdır. Aprel ayında Ümumdünya Əməyin Mühafizəsi Günü münasibətilə Naxçıvanda fəaliyyət göstərən 24 tikinti, sənaye və istehsal müəssisəsinin 61 nümayəndəsinin iştirakı ilə maarifləndirici tədbir keçirilmişdir. Eyni zamanda bu münasibətlə “Əməyin mühafizəsi” adlı rüblük elektron jurnalın xüsusi nömrəsi yayımlanmışdır.

Dövlət proqramının icrasına uyğun olaraq Naxçıvan Dövlət Teleradiosunda 8 veriliş hazırlanmış, “Nuhçıxan” İnformasiya Agentliyinin saytında 12 material yerləşdirilmiş, “Şərq qapısı” qəzetində 1 məqalə dərc olunmuşdur.

**“Şərq qapısı”**

## Daşınmaz əmlak obyekti üzərində hüquqların dövlət qeydiyyatına alınması diqqət mərkəzindədir

*Naxçıvan Muxtar Respublikasında əmlak və torpaq idarəçiliyinin müasir əsaslarla qurulması Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidməti tərəfindən diqqətdə saxlanılıb, xidmətin fəaliyyət sahələri üzrə işlər uğurla icra edilməkdədir.*

Belə ki, “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”na uyğun olaraq iyun ayında Kəngərli rayonu ərazisində 16380 metr kanal, 20 min 450 metr kollektor-drenaj şəbəkəsi plana alınıb. “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”nın icrası ilə əlaqədar olaraq həmin rayonun ərazisində 307,4 hektar meyvə bağı, 71,5 hektar meşə zolağı plana alınaraq xəritələşdirilib.

Muxtar respublikada kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması məqsədilə Sədərək rayonunun Sabirkənd yaşayış məntəqələrində, muxtar respublikada ailə təsərrüfatlarının inkişafı ilə əlaqədar olaraq Kəngərli rayonunun Yurdçu kəndində torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçilərinin, o cümlədən ailə təsərrüfatlarının nümayəndələrinin iştirakı ilə maarifləndirici tədbirlər keçirilib.

Torpaqlardan istifadəyə və onların mühafizəsinə dövlət nəzarətinin həyata keçirilməsi məqsədilə Şərur rayonunun Məmmədsabir və Qarxun kəndlərinin ərazisində monitorinqlər başa çatdırılıb, aşkar edilən qanun pozuntuları aradan qaldırılıb. Şərur rayonunun Muğancıq Mehrab, Siyaqut və Kəngərli rayonunun Çalxanqala kəndlərinin ərazisində monitorinqlər davam etdirilir.

Təkcə iyun ayı ərzində 721 daşınmaz əmlak obyekti üzərində hüquqlar dövlət qeydiyyatına alınıb, 527 texniki sənəd hazırlanıb, yeni yaranan 31 daşınmaz əmlak obyektinə ünvan verilib, 119 torpaq sahəsinin plan-ölçüsü dövlət kadastr kitablarında qeydiyyata alınıb. Səyyar xidmət vasitəsilə 8 yaşayış məntəqəsində vətəndaşların müraciətinə baxılıb, 5 ailə təsərrüfatına məxsus həyətyanı təsərrüfat binaları sənədləşdirilib, təsərrüfat fəaliyyəti ilə əlaqədar 6 ailə təsərrüfatının icarəsinə verilən 0,62 hektar torpaq sahəsi üzərində hüquqlar dövlət qeydiyyatına alınıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## Test imtahanları keçirilir

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən müəllimlərin dövlət ümumi təhsil müəssisələrinə işə qəbulu üçün elan edilmiş müsabiqənin test imtahanlarına start verilib.***



Nazirlər Kabinetinin “Naxçıvan Muxtar Respublikasında pedaqoji heyətin dövlət ümumi təhsil və peşə təhsili müəssisələrinə işə qəbulu, bilik və bacarıqlarının qiymətləndirilməsinin aparılması Qaydaları”nın təsdiq edilməsi haqqında 2018-ci il 14 aprel tarixli Qərarına əsasən keçirilən müsabiqəyə, ümumilikdə, 214 vakant vəzifə çıxarılıb. Budəfəki müsabiqəyə indiyə qədər bu istiqamətdə keçirilmiş imtahanlar üzrə ən çox namizəd müraciət edib. 858 namizədin sənəd təqdim etdiyi müsabiqədə daha çox qeydiyyat Şərur (225), Ordubad (161) və Culfa (121) rayonları üzrə olub. Ayrı-ayrı ixtisaslara nəzər saldıqda isə ən sıx müsabiqə vəziyyəti ibtidai sinif (210), riyaziyyat (113), Azərbaycan dili və ədəbiyyat (94), tarix (92) və ingilis dili (86) müəllimliyi üzrə qeydə alınıb.

Test imtahanlarında hər bir namizədə, ümumilikdə, 60 olmaqla, müəssisələrdə tədris olunan ixtisaslar üzrə fənn proqramına aid 40, tədris metodikası və təlim strategiyasına aid 20 test tapşırığı təqdim edilir. Test tapşırıqlarının yerinə yetirilməsi üçün 90 dəqiqə vaxt verilir və hər bir düzgün cavab bir balla qiymətləndirilir. Səhv cavablar düzgün cavablara təsir etmir.

Test imtahanları avqustun 16-na qədər davam edəcək.

***Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin mətbuat xidməti***

## Muzeylərə kollektiv gedişlər davam edir



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli "Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında" Sərəncamına uyğun olaraq muxtar respublikada dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin olunub. Bu istiqamətdə həyata keçirilən tədbirlərin davamı kimi iyulun 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının kollektivi və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin əməkdaşları AMEA Naxçıvan Bölməsinin Nəbatat bağında olublar.

Məlumat verilib ki, Nəbatat bağı 2003-cü ildə yaradılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun göstərişi ilə bağ muxtar respublikanın ziyarət olunan muzeyləri siyahısına daxil edilib. 13,2 hektar ərazini əhatə edən bağda dünyanın müxtəlif botaniki-coğrafi rayonlarından, o cümlədən Azərbaycan florasından toplanılan ayrı-ayrı torpaq və iqlim xüsusiyyətlərinə malik ağac, kol, meyvə, giləmeyvə, üzüm sortları, dekorativ bitkilər, tropik və subtropik bitki nümunələri, dərman və digər bitkilər əkilərək tədqiq edilir. Həmçinin burada nadir bitkilər kolleksiyası sahəsi də fəaliyyət göstərir.

Bildirilib ki, Nəbatat bağının yaradılmasında əsas məqsəd insanların dünya ölkələrinin, o cümlədən muxtar respublikanın zəngin flora nümunələri ilə tanış edilməsidir. Bağın nadir bitkilər kolleksiyası sahəsində Azərbaycan və Naxçıvan Muxtar Respublikasının Qırmızı kitablarına daxil edilmiş müxtəlif bitki növləri də mövcuddur. Burada ayrı-ayrı flora nümunələri üçün sahələr, təcrübə yerləri, tingçilik sahələri, həmçinin üzüm və meyvə genofondu bağı yaradılıb. Bu da yerli və məhsuldar toxum sortlarının bərpası baxımından mühüm əhəmiyyət daşıyır.

Muxtar respublikanın zəngin flora nümunələri ilə tanışlıq buranı ziyarət edən əməkdaşlarda xoş təəssüratlar yaradıb.

Həmin gün Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti Aparatının kollektivi Naxçıvan Biznes Mərkəzində, Ali Məhkəmənin, Naxçıvan Şəhər Məhkəməsinin və ixtisaslaşdırılmış məhkəmələrin kollektivləri Yusif Küseyir oğlu türbəsində, Daxili İşlər Nazirliyinin kollektivi Milli Dəyərlər Muzeyində, Dövlət Təhlükəsizliyi Xidmətinin kollektivi Duz Muzeyində, Naxçıvan Muxtar Respublikası Prokurorluğunun kollektivi Qarabağlar Türbə Kompleksində, Ədliyyə Nazirliyinin kollektivi Naxçıvan Dövlət Rəsm Qalereyasında, Fövqəladə Hallar Nazirliyinin kollektivi Cəlil Məmmədquluzadənin ev-muzeyində, Dövlət Gömrük Komitəsinin kollektivi Xatirə Muzeyində, İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsmanın) Aparatının kollektivi Hüseyn Cavidin ev-muzeyi və xatirə kompleksində, Maliyyə Nazirliyinin kollektivi Bəhruz Kəngərli Muzeyində, İqtisadiyyat Nazirliyinin kollektivi Cəmşid Naxçıvanski Muzeyində, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin kollektivi "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində, Kənd Təsərrüfatı Nazirliyinin kollektivi Naxçıvan Dövlət Xalça Muzeyində, Rabitə və Yeni Texnologiyalar Nazirliyinin kollektivi "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində, Səhiyyə Nazirliyinin kollektivi Ədəbiyyat Muzeyində, Təhsil Nazirliyinin kollektivi Naxçıvan Dövlət Tarix Muzeyində, Gənclər və İdman Nazirliyinin kollektivi "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksi və Gülüstan türbəsində, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin kollektivi isə Heydər Əliyev Muzeyində olublar.

✍ **Səbuhi HƏSƏNOV**

*"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən Qarnizon Qoşunlarında yeni tədris dövrü başlayıb.*

## Naxçıvan Qarnizonu Qoşunlarında yeni tədris dövrü başlayıb



2021-ci tədris ilinin ikinci tədris dövrünün başlanması ilə əlaqədar birləşmə və hissələrdə sıra baxışları keçirilib, maddi-tədris bazaları, poliqonlar, təlim döyüş texnikaları, ştat kateqoriyasına uyğun olaraq şəxsi heyətin silahı və döyüş təchizatı yoxlanılıb.

Mərasimlərdə ötən tədris dövründə planlaşdırılmış tədbirlərin tam həcmdə icra olunduğu qeyd edilib, silahlanmaya yeni daxil olmuş silah və texnika, eləcə də qoşunlarla idarəetmənin təkmilləşdirilməsi istiqamətində görülmüş tədbirlər haqqında şəxsi heyətə məlumat verilib. Əlahiddə Ümumqoşun Ordu komandanının tapşırıqlarını çatdırarkən yeni tədris dövründə əsas diqqətin qoşunların daim döyüşə hazır olmasının təmin edilməsinə, əməliyyat direktivinə uyğun olaraq döyüş tapşırıqlarının vaxtında və dəqiq yerinə yetirilməsinə yönəldildiyi vurğulanıb.

Çıxışların ardından 2021-ci tədris ilinin birinci tədris dövründə döyüş və ictimai-siyasi hazırlıqda fərqlənən hərbi qulluqçular mükafatlandırılıblar.

Birləşmə və hissələrdə təntənəli keçidlərdən sonra Naxçıvan Qarnizonu Qoşunlarında yeni tədris dövrünün ilk məşğələləri keçirilib, qoşunlar döyüş hazırlığı üzrə bölmələr tərkibində həyəcan siqnalı ilə məşq etdirilib.

**Nəriman NƏCƏFOV**

## Pensiya və müavinətlər vaxtında ödənilib

Muxtar respublikamızda bərqərar olunmuş sosial-iqtisadi inkişaf ən müxtəlif sahələrdə böyük uğurlar qazanılmasına şərait yaradıb. İnsana qayğının prioritet vəzifəyə çevrildiyi qədim diyarımızın bütün bölgələrində vətəndaşların sosial təminatı da diqqət mərkəzindədir. Bunu Ordubad rayonunun timsalında da görmək olar. Yaradılan şərait hesabına bu bölgədə də pensiya və müavinətlərin vaxtında ödənilməsi diqqət mərkəzində saxlanılır. Bunun üçün bölgədə dayanıqlı maliyyə təminatı formalaşdırılıb.

Həyata keçirilən tədbirlər öz bəhrələrini verib. Belə ki, Dövlət Sosial Müdafiə Fondunun rayon şöbəsi tərəfindən 2021-ci ilin yanvar-iyun aylarında pensiya və müavinətlərin ödənilməsinə 8 milyon 311 min 105 manatdan çox vəsait yönəldilib. Bu, 2020-ci ilin göstəricisindən 6,4 faiz çoxdur.

Qeyd olunmalıdır ki, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, öz növbəsində, demoqrafik vəziyyətə müsbət təsir göstərib. Belə ki, 1 iyun 2021-ci il tarixə rayon əhalisinin sayı əvvəlki ilin müvafiq dövrünə nisbətən 121 nəfər artaraq 50 min 400 nəfər olub.

**Xəbərlər şöbəsi**

## "Şərq qapısı" qəzetinin 100 illik yubileyi Culfa rayonunda qeyd olunub



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı ilə təsdiq olunan Tədbirlər Planına əsasən avqustun 2-də Culfa Rayon Mədəniyyət Sarayında mətbu orqanın yubiley tədbiri keçirilib.*

Tədbiri giriş sözü ilə rayon İcra Hakimiyyəti başçısının müavini Sara Hüseynova açaraq "Şərq qapısı" qəzetinin muxtar respublikanın tarixi inkişaf yolunun işıqlandırılmasındakı böyük rolundan, Culfa rayonunun sosial-iqtisadi inkişafının, ictimai-siyasi həyatının tarixiləşdirilməsindəki əhəmiyyətindən bəhs edib, qəzet kollektivini rayon ictimaiyyəti və sakinləri adından təbrik edib.

"Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova çıxış edərək bildirib ki, böyük maarifçilik məktəbi, mütərəqqi ideyaların beşiyi sayılan "Şərq qapısı" qəzeti ictimai-siyasi fikir tariximizdə, milli-siyasi təfəkkürün formalaşması və inkişafında mühüm rola malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" 2021-ci il 1 iyun tarixli Sərəncamı bu mətbu orqanın muxtar respublikamızın ictimai-siyasi, sosial həyatındakı, bütövlükdə, Azərbaycan ictimai-siyasi fikir tarixindəki yerini bir daha aydın təsdiq edir. 1921-ci ilin noyabrında Gənclər İttifaqının orqanı olan "Cavanlar həyatı" qəzetinin nəşrə başlaması ilə Naxçıvanda qəzetçiliyin təməli qoyulub, hələ XIX əsrin 90-cı illərindən meydana gələn qəzet nəşr etdirmək ideyası, nəhayət ki, gerçəyə çevrilib. Vərəqə şəklində çap olunan "Cavanlar həyatı" qəzeti iki aya yaxın müddətdə fəaliyyət göstərib, 1921-ci ilin dekabrından etibarən Naxçıvanda "Füqəra səsi" adlı yeni bir qəzet nəşr olunub. 1922-ci ilin aprel ayından nəşr edilməyə başlayan "Şərq qapısı" qəzeti isə müxtəlif tarixi mərhələlərdə ictimai-siyasi, ədəbi-mədəni proseslərin işıqlandırılmasında, millilik və maarifçilik ideyalarının təbliğində mühüm rol oynayıb.



Qeyd olunub ki, ötən əsrin 70-80-ci illərində "Şərq qapısı" qəzetinin gündəlik və böyük formatda nəşri təmin edilib. Tarixən Azərbaycançılıq ideologiyasına, milli məfkurəyə xidmət edən "Şərq qapısı" qəzeti XX əsrin 90-cı illərinin əvvəllərində Sovetlər Birliyində nəşr olunan ilk müstəqil mətbuat orqanı kimi tarixə düşüb, 1990-cı il 20 yanvar tarixdən etibarən səkkiz nömrəsi müstəqil çıxan qəzet milli həmrəylik, demokratiya və milli müstəqillik uğrunda mübarizədə ideoloji bayraqdar funksiyasını yerinə yetirib. Ümummilli lider Heydər Əliyevin "Şərq qapısı" qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan müsahibəsi, ulu öndərin Vətənə qayıtdığından sonra Azərbaycan mətbuatında dərc olunmuş ilk müsahibə kimi qəzetin fəaliyyət tarixində şanlı səhifəni təşkil edir. Qəzet muxtar respublikamızda fəaliyyət göstərən görkəmli dövlət xadiminin müstəqilliyimizin bərpası və möhkəmləndirilməsi yolunda həyata keçirdiyi tədbirlərin fəal təbliğatçısı olub. Müstəqillik illərində "Şərq qapısı" qəzetinin maddi-texniki bazası gücləndirilib, yaradıcılıq imkanları genişləndirilib, rəngli nəşrinə başlanılıb, yubileyləri dövlət səviyyəsində qeyd olunub.

Vurğulanıb ki, bu gün "Şərq qapısı" qəzeti redaksiyasında istər jurnalist peşəkarlığı, istərsə poliqrafik keyfiyyət baxımından müasir tələblərə cavab verəcək, dünya qəzetçilik arenasına çıxa bilən qəzetin nəşri üçün müasir iş şəraiti yaradılıb. Muxtar respublikada jurnalistika sahəsində kadr potensialının formalaşdırılmasına göstərilən diqqət və qayğının nəticəsidir ki, bu gün "Şərq qapısı"nda təcrübəli jurnalist həmkarlarımızla yanaşı, gənc əməkdaşlar da çalışır. 2012-ci ildən etibarən *www.serqqapisi.az* saytı vasitəsilə qəzet dünyanın Naxçıvanla bağlı informasiya tələbatını ödəməyə başlayıb, qəzetin elektron arxiv bazası yaradılıb. Sayt 2019-cu ildə yenilənib. 2005-ci ildə Naxçıvan Mətbuat Şurası, eləcə də Ali Məclis Sədrinin 2021-ci il 21 yanvar tarixli Fərmanı ilə Ali Məclisin Sədri yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun əsasında "Naxçıvan Muxtar Respublikasının Medianın İnkişafı Agentliyi" publik hüquqi şəxs yaradılıb. Bütün bunlar muxtar respublikada uğurlu mətbu siyasətin təcəssümüdür. Qazanılan uğurlar Naxçıvanı dünyaya böyük vətənpərvərlik sevgisi ilə sevdirmək məramının, Naxçıvan həqiqətlərinin dünyaya düzgün çatdırılmasının, vaxtilə Naxçıvana ərazi blokadasından da ağır zərbələr vuran informasiya blokadasının yarılması, informasiya təminatının düşünülmüş şəkildə təşkilinin bəhrələridir. "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə" müvafiq Sərəncamın imzalanması və bu Sərəncamla Tədbirlər Planının təsdiq olunması, bütövlükdə, muxtar respublikada kütləvi informasiya vasitələrinin inkişafına dövlət qayğısı olmaqla, milli mətbuatın cəmiyyətdəki, dövlətçilik tariximizdəki mühüm roluna verilən siyasi qiymətdir.

Baş redaktor göstərilən yüksək diqqət və qayğıya görə qəzetin kollektivi adından Ali Məclisin Sədrinə minnətdarlıq edib.

Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov çıxışında bildirib ki, muxtar respublikada həyata keçirilən dinamik inkişaf bütün sahələr kimi mətbuat orqanlarını da əhatə edib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasının dövlət mətbuat orqanlarının maddi-texniki vəziyyətini yaxşılaşdırmaq tədbirləri haqqında" 2000-ci il 29 mart tarixli Sərəncamından sonra bu istiqamətdə mühüm tədbirlər həyata keçirilib. Milli mətbuatımızın 135 illik yubileyində – 2010-cu il iyulun 22-də "Şərq qapısı" qəzeti redaksiyası və "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi üçün yeni redaksiya-nəşriyyat kompleksinin istifadəyə verilməsindən sonra qəzetin rəngli nəşrinə başlanılıb. 2018-ci ildə dövlət teleradiosuna, "Şərq qapısı", şəhər və rayon qəzetlərinə, Televiziya və Radio Şurasına ümumi dəyəri 250 min manatdan artıq olan müxtəlif avadanlıqlar alınıb, sonrakı dövrdə də teleradio və qəzetlərin maddi-texniki bazaları gücləndirilib.

Rövşən Hüseynov qeyd edib ki, "Şərq qapısı" qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə imzalanan tarixi Sərəncam Naxçıvanın 100 illik tarixinin, mədəniyyətinin, elminin yetirdiyi jurnalistlər nəslinin əməyinə verilən böyük qiymətdir. Məhz həmin jurnalistlər nəslinin davamçılarıdır ki, dövlət qayğısından bəhrələnərək muxtar respublikamızın sosial-iqtisadi inkişafında və çiçəklənməsində, vətəndaşların informasiyaya olan tələbatının daha dolğun səviyyədə ödənilməsində, milli dəyərlərin təbliğində, siyasi mədəniyyətin formalaşmasında, Naxçıvanın bir turizm məkanı kimi tanıdılmasında, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasında fəal iştirak edirlər.

Tədbirdə Culfa Rayon İcra Hakimiyyəti başçısı aparatının İnformasiya təminatı və təhlil sektorunun müdiri Mübariz Möhsünov, "Şərq qapısı" qəzetinin əməkdaşı Güntac Şahməmmədli, "Arazın səsi" qəzetinin redaktoru Alim Ağayev, Müharibə, Əmək, Silahlı Qüvvələr və Hüquq-Mühafizə Orqanları Veteranlar Şurası Culfa Rayon Təşkilatının sədri Qurban Qurbanov, "Arazın səsi" qəzetinin məsul katibi Səriyyə Salahova çıxış edərək "Şərq qapısı" qəzeti ilə bağlı xatirələri bölüşüb, qəzetin milli mətbuatımızın inkişafında, Culfa rayonunun sosial-iqtisadi inkişafının, tarixinin mətbuat vasitəsilə işıqlandırılmasındakı müstəsna rolundan ətraflı söhbət açıblar.

Sonda "Şərq qapısı" qəzeti ilə yaxından əməkdaşlıq edən "Arazın səsi" qəzetinin redaktoru Alim Ağayevə fəxri fərman və hədiyyələr, digər qələm sahiblərinə hədiyyələr təqdim olunub. Tədbirdə "Şərq qapısı"nın nəşri tarixini əks etdirən, Culfa rayonu ilə bağlı qəzetdə dərc olunan materiallardan ibarət slayd nümayiş olunub.

✍ **Güntac ŞAHMƏMMƏDLİ**



*İnkişaf edən bölgələrimiz*

# Culfa rayonu inkişaf və tərəqqi yolundadır

## *Bunu ötən 6 ayda əldə olunan uğurlar da təsdiq edir*

***Son illərdə Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatında, sosial-iqtisadi və mədəni inkişafında heç bir dövrlə müqayisə edilməyəcək hərtərəfli inkişafa nail olunub. Zaman etibarilə o qədər də böyük olmayan müddət ərzində əldə edilmiş bu uğurlar Naxçıvanın necə əzmlə və mətin addımlarla irəlilədiyini göstərir. Bu isə onu söyləməyə əsas verir ki, muxtar respublikamızda ümummilli liderimiz Heydər Əliyevin quruculuq, yeniləşmə siyasəti uğurla davam etdirilir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin söylədiyi kimi: ***“Ötən hər ili göz önünə gətirəndə bir daha əmin oluruq ki, ölkəmizdə Heydər Əliyev siyasi kursunun alternativi yoxdur. Bu kurs, bu yol Azərbaycanda sosial-iqtisadi inkişafın yeni tələblər baxımından təmin olunmasının yeganə düzgün yoludur. Bu yol ölkəmizin dünəninin, bu gününün, sabahının və gələcəyinin yoludur. Bu yolu uğurla davam etdirən ölkəmizin Prezidenti İlham Əliyevin dediyi kimi Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası, ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir”.*** Elə muxtar respublikanın bugünkü inkişafının, çoxlarına möcüzə kimi görünən tərəqqinin Naxçıvan modelinin yaradılması məhz bu amilin – Heydər Əliyev siyasətinə böyük ehtiramın və sadiqliyin nəticəsidir. Bu gün qədim diyarımızın bütün bölgələri – rayon mərkəzləri, ən ucqar dağ və sərhəd kəndləri belə, ulu öndərin müəyyənləşdirdiyi quruculuq işığından nur alaraq gözəl və müasir ünvanlara çevrilib. Ötən dövr ərzində keçilən yol bir sıra məqamları ilə tariximizin səhifələrinə yazılıb.

2021-ci ilin ötən dövrü, eləcə də bu il Culfa rayonunun həyatında zəngin hadisələrlə, böyük dövlət qayğısının ifadəsi olan yeniliklərlə yadda qalıb. Belə ki, bəhs edəcəyimiz qısa zaman kəsiyində qazanılmış uğurlar konkret nəticələrlə daha da möhkəmləndirilib, bütün sahələrdə verilmiş tapşırıqlara əməl olunub, bölgənin dinamik inkişafı təmin edilib. Ona görə də bu gün Culfa da muxtar respublikamızın başqa bölgələri kimi əldə etdiyi uğurların sevincini yaşayır. Bunun da bir başlıca səbəbi var: gündən-günə gözəlləşməkdə olan Culfa rayonunun simasına əlavə çalarlar qatılıb. Rayonda sakinlərin rahat və xoşbəxt həyat sürməsinə yönələn bir sıra proqram və layihələr isə insan amilinə qayğının davamlılığından xəbər verir.

Bəhs olunan dövrdə muxtar respublikamızda ilk dəfə olaraq Culfa rayonunda yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası istifadəyə verildi. Gülüstan kəndi yaxınlığında 3,3 hektar ayrılmış əkinəyararsız ərazidə komplektləşdirilən 1,1 meqavatlıq yeni Külək-Günəş Hibrid Elektrik Stansiyası rayonun enerji tələbatının 10 faizdən çoxunu ödəyir.

Bundan əlavə, quruculuq tədbirlərinin davam etdirildiyi Culfa şəhər icra nümayəndəliyinin, şəhər Bələdiyyəsi, Rayon Qeydiyyat Şöbəsi, Statistika İdarəsi, Gigiyena və Epidemiologiya Şöbəsi, Notariat Ofisi və Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin Culfa Rayon İdarəsinin yerləşəcəyi inzibati binalarda təmir-bərpa işləri davam edir. Burada idarə və təşkilatlar üçün müasir iş otaqları yaradılır.



Hazırda rayonda “Naxçıvanbank” Açıq Səhmdar Cəmiyyətinin Culfa Rayon Filialı üçün yeni binasının və Culfa şəhərinin Elşad Nağıyev küçəsində 3 mərtəbəli, 18 mənzilli yeni yaşayış binasının tikintisi davam etdirilir.

Bütün bölgələrimizdə olduğu kimi, Culfa rayonunda da aparılan kompleks abadlıq və quruculuq işlərinin bir hissəsini yol infrastrukturunun yenidən qurulması təşkil edir. Belə ki, Culfa şəhər Elşad Nağıyev, Mikayıl Müşfiq və Cəlil Məmmədquluzadə küçələrinin avtomobil yolları və piyada keçidləri yenidən qurulur. 4 zolaqdan ibarət olacaq yolların ümumi uzunluğu 1400 metrdən artıq, eni isə 14 metr olacaq.

İllərdir ki, muxtar respublikamızda iqtisadiyyatın davamlı inkişafı təmin edilib. Bunu Culfa rayonunun timsalında da görmək olar. Mövcud olan təbii resurslardan səmərəli və kompleks şəkildə istifadə edilməsi, bu sahənin inkişafı üçün həyata keçirilən məqsədyönlü tədbirlər, uzunmüddətli kreditlərin verilməsi nəticəsində iqtisadiyyatın lokomotivi sayılan sənaye də inkişaf etdirilən sahələrdən birinə çevrilib. Bəhs olunan dövrdə rayonda 3 milyon 601 min 400 manat dəyərində sənaye məhsulu istehsal olunub.



Etibarlı ərzaq təminatı iqtisadi sabitliyin və sosial dayanıqlılığın başlıca şərtdir. Ona görə də rayonda əhalinin ərzaq məhsullarına olan tələbatının keyfiyyətli yerli məhsullar hesabına ödənilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilməkdədir. Bu həm də o deməkdir ki, əhalinin məşğulluğu təmin edilir, torpaqlarımız əkilməmiş qalmır, daxili bazarda məhsul bolluğu yaranır. Görülən işlər nəticəsində rayonda əkinçiliyə maraq artır, kənd təsərrüfatının inkişafında yüksəlişə nail olunur. Qeyd edək ki, rayonda 2021-ci ilin məhsulu üçün 8213 hektar sahədə əkin aparılmış, əkin sahələrinin 5665 hektarını dənli və dənli-paxlalı bitkilər (qarğıdalısız), 5 hektarını dən üçün qarğıdalı, 4 hektarını dən üçün günəbaxan, 381 hektarını tərəvəz bitkiləri, 236 hektarını ərzaq üçün bostan bitkiləri, 154 hektarını kartof, 1 hektarını birillik otlar, 1351 hektarını cari ildə əkilmiş çoxillik otlar, 416 hektarını isə əvvəlki illərdə əkilmiş çoxillik otlar təşkil etmişdir.



Kənd təsərrüfatı məhsullarının istehsalında ailə təsərrüfatlarının rolunu xüsusi vurğulamaq lazımdır. Bu sahəyə göstərilən dövlət qayğısının nəticəsidir ki, cari ilin ötən dövründə rayonda ailə təsərrüfatlarının sayı 161-ə çatdırılmış, Culfa şəhərində, Gülüstan və Yaycı kəndlərində quşçuluqla məşğul olan yeni ailə təsərrüfatları yaradılmışdır. Aqrar sahədə həyata keçirilmiş tədbirlər kənd təsərrüfatı məhsullarının istehsal həcminin artmasına, daxili bazarda məhsul bolluğu yaradılmasına gətirib çıxarmışdır.

Rayonda xüsusi diqqət yetirilən sahələr içərisində heyvandarlıqda qazanılan uğurlar da diqqətçəkicidir. 2021-ci ilin birinci yarısında rayonda diri çəkidə 2071 ton ət, 5912 ton süd və 130 tondan çox yun istehsal edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı”nın icrası Culfa rayonunda da uğurla davam etdirilib, nəticədə, rayonda arıçıların fəaliyyətinə geniş imkanlar açılıb.

Muxtar respublikamızda həyata keçirilən məşğulluq strategiyası əhalinin yaşayış səviyyəsinin dəfələrlə artması ilə müşahidə olunaraq insan amilinə qayğını özündə təcəssüm etdirir. Bütün bölgələrimiz kimi, Culfada da bu istiqamətdə əmək yarmarkaları, əmək bazarının tələblərinə uyğun peşə hazırlığı kursları təşkil olunması nəticəsində sakinlərin işlə təmin edilməsi və rayonda yeni iş yerlərinin yaradılması ötən aylarda da uğurla davam etdirilib. Bu da əhali tərəfindən yüksək dəyərləndirilir.

Turizm müasir dünya iqtisadiyyatının aparıcı sahələrindəndir. Turizm həm də cəmiyyətin iqtisadi və mədəni tərəqqisinin bir göstəricisidir. Turizmin inkişaf etdirilməsi muxtar respublikamızda daim diqqət mərkəzindədir. Hazırda tikintisi davam etdirilən Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksi istifadəyə verildikdən sonra rayonda turizmin inkişafı üçün yeni şərait yaranacaq, həm də təbii sərvətlərimizdən faydalanmaq imkanlarımız artacaq. Bundan başqa Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”nın icrası ilə bağlı 2021-ci ilin ötən dövründə rayonun Ləkətağ kəndində “Ləkətağ kənd yaşıl turizm” istirahət sahəsinin yaradılması ilə bağlı tədbirlərə başlanılıb.

*2021-ci ilin ötən dövrü ərzində Culfa rayonunda müxtəlif sahələrdə həyata keçirilmiş genişmiqyaslı tədbirlər həm də qazanılmış uğurlardan xəbər verir. Heç şübhəsiz, bu uğurların əsasını muxtar respublika rəhbərinin məqsədyönlü fəaliyyəti, möhkəm iradəsi, ulu öndərimizin siyasi xəttini uğurla davam etdirməsi təşkil edir. Bəli, indi bütün bölgələrimiz kimi, Culfa rayonu da ulu öndər Heydər Əliyevin işıqlı ideyalarında, sabitlik şəraitində xoşbəxt və firavan yaşayır. Bir sözlə, Culfa muxtar respublikamızın digər rayonları kimi inkişaf, tərəqqi yolundadır. Tərəqqinin bəhrələri isə göz önündədir. Biz bunları görür, uğurlarımıza sevinir, belə bir diyarın sakini olmağımızla fəxr edirik.*

**Alim AĞAYEV**
***“Arazın səsi” qəzetinin redaktoru***

# Ləziz dadı, ətri və keyfiyyəti ilə seçilən Şərur şaftalısı

Muxtar respublikamızda meyvəçilik ənənəvi, eyni zamanda əsas kənd təsərrüfatı sahələrindən sayılır. Tərkibi müxtəlif vitaminlərlə zəngin olan meyvələrin insan orqanizminə faydalarını və meyvə ağaclarının ətraf mühitə ekoloji, estetik təsirini nəzərə alsaq, bu sahənin nə qədər əhəmiyyətli olduğunu görərik. Bu səbəbdən meyvəçilik uzun illərdən bəri Şərur rayonunda da insanların əsas məşğuliyyət növü olub və onların güzəranını təmin edib. Həmin meyvələr içərisində şaftalı xüsusi yer tutur. Rayonda bu meyvəni əkib-becərənlər çoxdur. Bu meyvəyə “hülü” də deyirlər. Rayonun bütün kəndlərində, ən çox isə Aşağı Daşarx, Danyeri, Yuxarı Daşarx, Oğuz, Xanlıqlar, Zeyvə, Düdəngə, Siyaqut kəndlərində yetişdirilir. Burada şaftalı bağlarının sahəsi ilbəil genişləndirilir. Artıq bir neçə müddətdir ki, məhsul yığımına başlanılıb. Naxçıvan-Sədərək avtomobil yolundan keçənlər, yolboyu istədikləri təsərrüfatdan bu ətirli meyvədən də alıb, dadına baxa bilirlər.



Dərəkənd sakini Muraz Məmmədzadə ilə saldığı şaftalı bağında həmsöhbət oluruq. Öyrənirəm ki, burada həm yay, həm də payız aylarında yetişən yerli növlər mövcuddur. Artıq üç həftədir ki, məhsul yığımına başlanılıb. İndiyə qədər 3 hektar bağdan 20 tondan artıq şaftalı tədarük edilib. Müsahibim deyir ki, şaftalıya yerli bazarda böyük tələbat olduğundan satışında çətinlik yaranmır. Onun sözlərinə görə, şaftalı digər meyvələrlə müqayisədə daha çox qulluq tələb edir. Bağdakı tinglərin növləri arasında “zəfəran” sortu üstünlük təşkil edir. Bu növün qeyri-adi ətri var. Meyvənin iki çeşidi daha məşhurdur. Ağımtılı şirin, sarımtılı isə daha ətirli olur. Bol məhsul əldə etmək üçün ağaclara ilboyu qulluq lazımdır. Ağacların gövdəətrafı vaxtaşırı yumşaldılmalı, lazımi minerallar uyğun miqdarda verilməli, dərmanlama vaxtında aparılmalıdır. Ötən il olduğu kimi, bu il də məhsulumuz boldur. Bazara çıxarmaqda da heç bir çətinliyimiz yoxdur. Həftəsonu yarmarkalarla yanaşı, məhsulu elə gəlib bağdan alıb aparanlar da çox olur. Şaftalıdan mürəbbə, marmelad, cem, kompot hazırlamaqla bərabər həm də onu qurudurlar. Muraz Məmmədzadə onu da qeyd etdi ki, əkib-becərdiyi bağdan hər il bol məhsul əldə etmək üçün daha məhsuldar və tələbat çox olan şaftalı növlərini artırır.

Yay meyvələrindən ən dadlı və ən şirini olan şaftalının faydalarını saymaqla bitməz. Şaftalı orqanizmin normal fəaliyyəti üçün əhəmiyyətli olan vitaminlər, minerallar və digər zəruri maddələrlə zəngin meyvədir. Tərkibində müxtəlif turşular və vitaminlər, kalsium, kalium, maqnezium, dəmir, manqan, fosfor, sink, selen vardır. Şaftalı həzm sisteminə xeyirlidir. Meyvənin tərkibində olan qida lifləri suyu mənimsəyir, bir sıra xəstəliklərin qarşısını alır, böyrəklərdə daşların həll olmasına kömək edir. Həmçinin şaftalının tərkibindəki maqnezium insanı stress və həyəcandan qoruyur, əsəb sistemini sağlam saxlayır, askorbin turşusu və sinklə zəngin olduğuna görə immun sisteminin sağlam olmasına kömək edir. Meyvənin qabığında və mətində olan fenol birləşmələr isə ürək-damar sistemi xəstəliklərinin inkişaf riskini azaldır, ziyanlı xolesterinin səviyyəsini aşağı salır, tərkibindəki bioloji aktiv komponentlər artıq çəki ilə mübarizə aparmağa kömək edir.

Bu gün muxtar respublikamızda hər sahədə olduğu kimi, meyvəçiliyin inkişaf etdirilməsinə də geniş imkanlar açılıb. Dövlət qayğısından bəhrələnən hər bir torpaq adamı öz təsərrüfatında istədiyi meyvəni yetişdirə bilir. Bu isə yerli bazara başqa yerlərdən gətirilən və genofondu dəyişdirilmiş meyvələrin qarşısını alır. Bundan isə həm bağbanlarımız qazanır, həm də muxtar respublika sakinləri.

**✍ Aytac CƏFƏRLİ**

## Atıcılıq Federasiyası işini günün tələbləri səviyyəsində qurur



***İnsan sağlamlığı üçün ən vacib məşğuliyyət sahələrindən biri də idmandır. Uzun illər idmanla məşğul olan insanların cəmiyyət həyatına verdiyi töhfələr də danılmaz faktdır. Eyni zamanda idman insana bir çox müsbət keyfiyyətləri aşılayır, mərdlik, qorxmazlıq, cəsarət, şücaət, Vətənə məhəbbət kimi hisslərin formalaşmasına böyük təsir göstərir. Təsadüfi deyil ki, Naxçıvan Muxtar Respublikasında da idmanın inkişafı həyata keçirilən dövlət siyasətinin mühüm istiqamətlərindən birini təşkil edir.***

Son illərdə muxtar respublikada mühüm idman infrastrukturunun yaradılması, federasiyaların təşkili, idmanın kütləviliyinin artırılması üçün görülən işlər qədim diyarın idman regionu kimi tanınmasına stimul olmuşdur. Bu sahədə yaradılmış şərait muxtar respublikada bir çox beynəlxalq səviyyəli idman yarışlarının təşkilinə də geniş imkanlar açmışdır.

İdmanın inkişafı və onun kütləviliyinin artırılması sahəsində görülən işlər uğurlu nəticələrin əldə olunması ilə bərabər, burada fəaliyyət göstərən idman federasiyalarının da üzərinə mühüm məsuliyyət qoyur. İdmanın inkişaf etdirilməsinə töhfə verən Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyası da üzərinə düşən vəzifələrin ciddiliyini nəzərə alaraq işini günün tələbləri səviyyəsində qurmuşdur.

Məlumat üçün bildirək ki, 2013-cü il martın 18-də Naxçıvan Muxtar Respublikası Ali Məclisində bədən tərbiyəsi və idmanın hazırkı vəziyyəti və qarşıda duran vəzifələrlə bağlı keçirilən müşavirədə Atıcılıq Federasiyasının yaradılması qərara alınmışdır. Elə həmin il dekabrın 7-də federasiyanın hərtərəfli fəaliyyətinin təmin olunması məqsədilə beynəlxalq standartlara uyğunlaşdırılan Atıcılıq Mərkəzi istifadəyə verilmişdir.

Mərkəzin açılış mərasimində iştirak edən Ali Məclisin Sədri demişdir: ***“Muxtar respublikada idman federasiyaları yaradılarkən onların qarşısında gənc idmançıların yetişdirilməsi ilə yanaşı, idmanın kütləviliyinə nail olmaq da əsas vəzifə kimi qoyulmuşdur. Çünki idmanın kütləviliyinin təmin olunması fiziki cəhətdən sağlam gənc nəslin yetişdirilməsində vacib amildir. Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyasının fəaliyyətə başlaması və onun Atıcılıq Mərkəzinin yaradılması da bu sahədə həyata keçirilən tədbirlərin davamıdır. Mərkəzdə gənclərin atıcılıq idman növləri ilə məşğul olmaları üçün hər cür şərait vardır. Burada stend və sportinq atıcılığı ilə yanaşı, əyləncəli idman növlərinə də üstünlük verilmiş, tir, peyntbol və digər sahələr istifadəyə verilmişdir. Bu da gənclərin asudə vaxtının səmərəli təşkilinə şərait yaradacaqdır. Eyni zamanda quraşdırılan müasir avadanlıqlar mərkəzdə beynəlxalq yarışların keçirilməsinə, ərazinin düzgün seçilməsi isə təhlükəsizlik qaydalarına tam əməl edilməsinə imkan verəcəkdir”.***

Atıcılıq idman növü gənclərin asudə vaxtlarının səmərəli təşkili ilə bərabər, onların vətənpərvərlik ruhunda yetişməsinə də böyük təsir göstərir. Xüsusilə atıcılıq idman növü yeniyetmə və gənclərdə silahlarla davranışda, ilkin atıcılıq vərdişlərinin formalaşmasında mühüm rol oynayır. Bu gün federasiyanın Atıcılıq Mərkəzində hərbi-idman oyunlarının və təlimlərinin keçirilməsi üçün lazımi şərait yaradılıb. Burada inzibati bina, iki stend və sportinq meydançası olmaqla, oxatma və tir sahələri, peyntbol meydançası, beynəlxalq standartlara cavab verən idman oyunlarının keçirilməsi üçün ərazi mövcuddur. Mərkəz atıcılığın stend və sportinq növləri ilə məşğul olmaq üçün silahlar, qulaqcıq, gözlük və qoruyucu jiletlərlə təchiz olunub. Burada silahla davranış qaydalarına və təhlükəsizliyin təmin olunmasına xüsusi fikir verilir. Həmçinin iştirakçılar təlimatçılar tərəfindən bu barədə ətraflı məlumatlandırılır, qaydalar onlara izah edilir. Təhlükəsizliyin təmin olunması üçün ərazidə müşahidə kameraları və yanğından mühafizə məntəqələri qurulub. Stend və sportinq atıcılığı meydançaları bütün texniki inventarlarla təchiz olunub. Mərkəzdə altı ayrı istiqamətdən ABCDEF havaya atılan hədəflər üçün aparatlar quraşdırılıb. Yeri gəlmişkən, müxtəlif yarışlarda iştirak edən idmançıların bir çoxu bəzi bölgələrdəki Atıcılıq mərkəzlərinin bəzilərindən fərqli olaraq buradakı mərkəzdə hədəflərin daha dəqiq və professional quraşdırılmasını etiraf edirlər. Elektron sistem vasitəsilə idarə olunan aparatlardan saniyədə 15-42 metr sürətlə atılan hədəflərin atış sürəti idmançıların istəyinə və peşəkarlığına uyğun olaraq nizamlanır.

Atıcılıq Mərkəzinin ərazisində oxatma idman növü ilə məşğul olmaq üçün də hədəflər quraşdırılıb, oxlar və yaylar bura gələnlərin ixtiyarına verilib. Mərkəzdə eni 54, uzunluğu 93 metr olan peyntbol meydançası yaradılıb. İkihissəli tribuna inşa olunub. Tribunanın bir hissəsi peyntbol, digər hissəsi isə stend və sportinq yarışlarının izlənilməsi üçün nəzərdə tutulub. Mərkəzdə təlimlər təşkil edilir, şagird və kursantlara silahdan istifadə qaydaları öyrədilir, onların ilkin hərbi hazırlıq səviyyələrinin yüksəldilməsi diqqətdə saxlanılır.

Xatırladaq ki, Naxçıvan şəhərində fəaliyyət göstərən Atıcılıq və əyləncə mərkəzi də atıcılıq idman sahəsində görülən qürurverici uğurların tərkib hissəsidir. Adıçəkilən mərkəz interaktiv atış-təlim zalı, kafe və oyun salonundan ibarətdir. Oyun salonunda quraşdırılan 6 aparat vasitəsilə gənclər müxtəlif idman növləri ilə virtual məşğul olmaq imkanı əldə ediblər. Qeyd olunduğu kimi bu da gənclərin istirahətinin səmərəli təşkili ilə yanaşı, həm də onların psixoloji hazırlıq səviyyələrinin yüksəldilməsi və əqli inkişafı baxımından əhəmiyyətlidir. İnteraktiv atış-təlim zalında ən müasir avadanlıqlar quraşdırılmış, 5 atış nöqtəsi yaradılmışdır. Pnevmatik tüfəng və tapançadan atəş açmaqla hədəfləri dəqiq vurmaq mümkündür. Atıcılıq mərkəzlərinin fəaliyyəti təkcə Naxçıvan şəhəri ilə məhdudlaşdırılmamış, uğurlu layihə əsasında Şərur şəhərində də Tir Atıcılıq Mərkəzi rayon sakinlərinin ixtiyarına verilmişdir.





Naxçıvan Atıcılıq Federasiyası tərəfindən müxtəlif atıcılıq klublarının yaradılması atıcılıq idman növünün bölgələrdə olan inkişafı üçün geniş imkanlar yaradır. Bir sözlə, mərkəzin düşünülmüş çoxfunksiyalı fəaliyyət istiqamətləri gələcəyin peşəkar idmançılarının yetişdirilməsində mühüm rol oynayır. Elə buna görədir ki, son illərdə yeniyetmə və gənclər arasında bu idman növünə maraq əvvəlki illərlə müqayisədə xeyli artıb.

Bunu da qeyd edək ki, məlum pandemiya səbəbindən ötən il atıcılıq idman növlərində yarışların keçirilməsi müvəqqəti dayandırılsa da, bu ilin mart ayından federasiyanın tədbirlər planında nəzərdə tutulmuş idman yarışlarının bərpa olunmasına başlanılıb. Cari ilin ötən dövründə muxtar respublikanın müxtəlif dövlət qurumlarının kollektivləri, o cümlədən hüquq-mühafizə orqanları əməkdaşlarının, ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin, həmçinin federasiyalar arasında və digər idmançıların, idmansevərlərin iştirakı ilə müxtəlif vaxtlarda yarışlar təşkil edilib, qalib komandalar diplom və hədiyyələrlə mükafatlandırılıb. Naxçıvan Muxtar Respublikası Atıcılıq Federasiyası bundan sonra da idmanın kütləviliyinin təmin olunmasına çalışacaq, qarşıya qoyulmuş vəzifələrin vaxtında və layiqincə yerinə yetirilməsini təmin edəcəkdir.

**Vasib ABDULLAYEV**

## Rabitə infrastrukturu yenilənir

Muxtar respublikamızın digər rayonlarında olduğu kimi, Şərur rayonunda da həyata keçirilən quruculuq işləri təkcə rayon mərkəzinin deyil, ucqar kəndlərin belə, simasını yeniləşdirib, müasirliyə qovuşdurub. Bu illər ərzində neçə-neçə kənddə yeni təhsil, səhiyyə, mədəniyyət və rabitə obyektləri inşa olunub, yollar çəkilib, körpülər salınıb, su, elektrik və rabitə təsərrüfatları yaxşılaşdırılıb.



Rabitə sahəsində gedən sürətli inkişaf, fiber-optik xətlərin çəkilməsi, yüksəksürətli internet şəbəkəsinin yaradılması, ümumilikdə isə informasiya-kommunikasiya xidmətlərinin müasir tələblər səviyyəsində qurulması əhalinin müasir rabitə xidmətləri ilə əhatə olunması istiqamətində işlərin davam etdirilməsinə əsas zəmin yaradır. Şərur şəhərində yeni inşa olunan yaşayış binalarına və qurumlara rabitə xətləri çəkilib, sakinlər internet xidmətləri ilə təmin olunubdur. Həyata keçirilən kompleks tədbirlərin davamı olaraq hazırda rayonun Çərçiboğan kəndində rabitə infrastrukturu yenidən qurulur, yeni Rabitə Evi inşa edilir. Aparılan quruculuq işləri çərçivəsində xətt təsərrüfatında əsaslı təmir işləri aparılır, kabel-kanalizasiya qurğuları inşa edilir, hava rabitə xətləri yeraltı xətlərlə əvəz olunur. Bir sıra yerlərdə uzun müddət istismar olunan və müxtəlif səbəbdən yararsız vəziyyətə düşən taxta rabitə dirəkləri, metal dirəklərlə əvəz olunur, müxtəliftutumlu yararsız kabellər yeniləri ilə əvəz edilir, yeni abonent qutuları və paylayıcı şkaflar əlavə edilir, habelə rabitə xətlərində olan digər nasazlıqlar aşkar edilərək bərpa edilir və digər zəruri işlər həyata keçirilir. Həmçinin Avtomat Telefon stansiyalarında istismar olunan qurğulara, o cümlədən generatorlara, akkumulyatorlara texniki baxışın keçirilməsi istiqamətində də işlər davam etdirilir. Digər rayonlarda olduğu kimi, Şərur rayonunda da sakinlərə göstərilən rabitə xidmətlərinin keyfiyyətinə nəzarət edilməsi üçün mütəmadi olaraq xətt təsərrüfatının vəziyyəti ilə bağlı təhlillər aparılır, müraciətlərinə uyğun olaraq texniki dəstək və metodik köməkliklər göstərilir.

Rabitə infrastrukturunun yenidən qurulması xidmətlərin keyfiyyətinin daha da yüksəldilməsinə, əhalinin rifah halının yaxşılaşmasına xidmət edir.

**Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti**

## Şahmatçımız beynəlxalq yarışın mükafatçıları sırasında



Serbiyanın Voyevodina muxtar vilayətində şahmat üzrə beynəlxalq açıq çempionat təşkil olunub. 6 gün davam edən “XI Open International Championship of Vojvodina – 2021” yarışına 14 ölkədən, ümumilikdə, 140 idmançı qatılıb. Çempionatın görüşləri iki qrupda oynanılıb. Naxçıvan Şahmat Federasiyasının idmançısı Rza Həsənov 81 iştirakçının qərarlaşdığı “B” qrupunda mübarizə aparıb. Ölkəmizi bu qrupda təmsil edən yeganə şahmatçı 8 görüşdən 5,5 xal (5 qələbə, 1 heç-heçə, 2 məğlubiyyət) toplayıb. Bu nəticə ilə 14 yaşlı şahmatçılar arasında 2-ci olan Rza Həsənov reytinq əmsalını da 137 xal artırıb.

**Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti**

## Birincilik keçirilib

*Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında güc çoxnövçülüyü üzrə muxtar respublika birinciliyi keçirilib.*



Nazirliyin idman cəmiyyətinin zalında keçirilən yarışın məqsədi polis əməkdaşları arasında fiziki gücü, dözümlülüyü və dayanıqlılığı inkişaf etdirmək, həmçinin Azərbaycan Respublikası Daxili İşlər Nazirliyində keçiriləcək güc çoxnövçülüyü üzrə yarışda iştirak edəcək idmançıları seçməkdən ibarət olub.

Açılış mərasimində çıxış edən nazirliyin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidov bildirib ki, muxtar diyarımızda idman sahəsində həyata keçirilən uğurlu dövlət siyasəti və yaradılan şəraitin məntiqi nəticəsi olaraq Naxçıvan mötəbər idman turnirlərinin və beynəlxalq yarışların keçirildiyi məkana çevrilib. Bu gün muxtar respublika rəhbəri tərəfindən idmana və idmançılara göstərilən yüksək qayğının tərkib hissəsi olaraq polis əməkdaşlarının fiziki inkişafına və idman məşqlərinin keçirilməsinə də xüsusi diqqət yetirilir. Rəşad Seyidov Naxçıvan Muxtar Respublikasının daxili işlər naziri, general-leytenant Fazil Ələkbərovun adından idmançıları salamlayıb, onlara gərgin idman mübarizəsində uğurlar arzulayıb.

Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri, istefada olan polis polkovniki Yusif Həsənov və idman cəmiyyətinin rəisi, polis mayoru Elməddin Abdullayev çıxış edərək Naxçıvanda idmana və idmançılara göstərilən diqqət və qayğıdan danışıb, polis idmançılarımızın təcrübələrinin ildən-ilə artdığını vurğulayıblar.

Çıxış edənlər yaradılan şəraitə görə muxtar respublika rəhbərinə minnətdarlıqlarını bildiriblər.

Yarışda 14 komandanın 84 idmançısı mübarizə aparıb.

Yekun nəticəyə gəlincə, Daxili Qoşunların Əlahiddə Ümumqoşun Briqadası qalib adını qazanıb. Daxili İşlər Nazirliyinin komandası ikinci, Mühafizə Polisi Şöbəsinin komandası üçüncü olub.

Sonda qaliblər mükafatlandırılıblar.

**✍ Ceyhun MƏMMƏDOV**

***İtmişdir***

Babayev Azər Həbib oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Kazımov Səbahəddin Məmməd oğlunun adına Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyi tərəfindən verilmiş “Belarus-892” markalı traktorun AZ-85T-645 nömrəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Güntac Şahməmmədli

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 611